**UOT 75**

**Leyla Ramiz qızı Abuşova**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**Dissertant**
**E-mail: leylashka_adra@mail.ru**

# XALQ RƏSSAMI BABA ƏLİYEVİN YARADICILIĞINDA PORTRET JANRININ ÜSLUB XÜSUSİYYƏTLƏRİ

**Xülasə:** Məqalədə milli təsviri sənətimizin görkəmli nümayəndəsi Xalq rəssamı Baba Əliyevin yaradıcılığında portret janrının özünəməxsus üslub xüsusiyyətlərindən bəhs olunur. Aparılan tədqiqatlar və əldə olunmuş məlumatlara əsasən demək mümkündür ki, əməksevər xalqın həm sadə nümayəndələrinin, həm də müəyyən şöhrət qazanan şəxsiyyətlərin xarakterik xüsusiyyətlərinin uğurla həll olunması Baba Əliyevin portretlərində diqqəti cəlb edən əsas məqamlardandır. Rəssamın həmin dövr üçün insan həyatına xas müəyyən bir anın mühüm elementləri üzərindəki dərin araşdırması sayəsində yaratdığı portretlər yüksək bədii dəyərə malikdir.

**Açar sözlər:** portret, janr, təsviri sənət, rəng həlli, zəhmətsevər, bədii obraz, realizm.

XX əsrin ortalarında dövrün siyasi-ideologiyasının təbliğat vasitəsinə çevrilmiş incəsənət misli görünməmiş nailiyyətlər əldə etmişdir. Yaradılan hər bir əsər sosialist məzmunlu olmuş olsa belə onların kökü milli dəyərlərə, mədəniyyətə əsaslanırdı. Bu əsasda peşəkar kadrlar sayəsində Azərbaycan milli rəngkarlıq məktəbinin formalaşmasına münbit şərait yaranırdı.

Azərbaycan təsviri sənət tarixində baş verən dəyişikliklər bədii fenomen kimi böyük əhəmiyyətə malik idi. Bu dövrün bədii prosesləri ideoloji mahiyyətdən çıxaraq bədii səciyyə daşımağa başlamışdır. Xüsusən rəngkarlıq sahəsində keçmişə məxsus təsvir təcrübələri qoruyub saxlamaqla müasir təsvir modelinin qurulması sahəsində önəmli nailiyyətlər qazanılmışdır. Bütün bunlar ictimai-mədəni dəyişikliklər fonunda rəssamların yaradıcılığında geniş şəkildə təzahürünü tapmışdır. Bir çox rəssamların yaradıcılıq axtarışları müxtəlif janrlı əsərlərində müvəffəqiyyətlə təqdim olunurdu. “Bu əsərlərdə rəssam özünü realist cərəyanın nümayəndəsi kimi təqdim edərək sözügedən tabloları klassik rəngkarlıq qaydalarına uyğun həcm və məkanı təşkil edən formanı əmələ gətirən güclü və eyni zamanda müxtəlif çalarlarla zəngin rəng keçidləri əsasında həll etməyi bacarmışdır.” [1. s.39]

Azərbaycan təsviri sənətinin çoxəsrlik tarixinə nəzər saldıqda portret rəngkarlığının özünəməxsus mürəkkəb inkişaf yolu keçdiyinin şahidi oluruq. Azərbaycan rəngkarlığında ən geniş yayılmış və ən erkən janrlardan biri olan portret hər zaman əhəmiyyətli rol oynamışdır. Zaman-zaman rəssamlarımız portret janrında bir-birindən maraqlı və olduqca fərqli forma-biçimdə portretlər yaratmışlar. Demək olar ki, ötən əsrin rəssamlarının yaradıcılığında portret janrı müəllifin bir rəssam kimi özünütəsdiq vasitə kimi qəbul olunmuşdur. Bunu Baba Əliyev yaradıcılığında da aydın sezmək mümkündür.

Rəssam portret əsəri yaradarkən modelin xarakterik və tipik cəhətlərinin görməyi, bunlardan hansının daha çox qabardılmasını seçməyi, əsas ideyanın bədii obraz vasitəsi ilə ümumiləşdirməyi bacarmalıdır. Azərbaycan təsviri sənətində özünəməxsus dəst-xəttə malik olan B.Əliyev yaradıcılığında xüsusi çəkisi olan portret əsərləri də bu məziyyətləri daşıyır. Bütün yaradıcılığı boyu portret janrına müraciət edən fırça ustası bu əsərləri xüsusi məharət və böyük ustalıqla yerinə yetirir. O, həm müasirlərinin, həm də tarixi şəxsiyyətlərin portretlərinin zəngin qalereyasını yaratmışdır. Daima yeni yaradıcılıq axtarışlarında olan görkəmli fırça ustası portret janrında da yeni metodların və nailiyyətlərin tətbiqi üçün çalışır. Rəssamın ərsəyə gətirdiyi portretlərinin səciyyəvi xüsusiyyəti fərdilik, ifadəlilik, daxili dünyanın tərənnümüdür. Onun yaradıcılığında portret əsərləri bədii tutumuna görə xüsusilə yadda qalır və o hər zaman təsvir etdiyi modeli “yüksəklərə qaldırır”, onun mahiyyətini aşkar etməyə çalışır. Rəssam portret əsəri üzərində işə başlamazdan əvvəl modeli uzun müddət müşahidə edir və yaradıcılıq prosesi zamanı onun xarakterik olan hər bir detalı üzərində dəqiqliklə, incəliklə işləyirdi. O, portretlərini təmkinlə işləyir, şəxsiyyətin ən qabarıq fərdi cəhətlərini parlaqlığı, əlvanlığı ilə əks etdirərək tipik obraz yaratmağa nail olurdu. Portret əsərlərinin bədii keyfiyyəti yüksək icra məharətinə sahib olan rəssamın yaradıcılığına təkraredilməzlik bəxş edir.

Portretlərində əks olunmuş qəhrəmanlar – dövrün siyasi xadimlərin, hərbiçilərin, sənət adamları və ya qocaman, gənc neftçilərin, zəhmətkeş sadə insanların simalarını əbədiləşdirmək və onların şücaətinə, mənəvi dünyasına rəssam peşəkarlıqla nüfuz edə bilmişdir. “Azərbaycan SSRİ Xalq artisti bəstəkar Cövdət Hacıyev”, “L.İ.Brejnev neftçilər arasında”, “Marşal Şapoşnikov”, “Sovet İttifaqı qəhrəmanı Suprun”, “Təyyarəçinin portreti” və s. kimi əsərləri əsasən təravətli rəng həllinin kontrastından dəqiqliklə ifadəsi ilə diqqəti cəlb edir.

Təsviri sənətimizdə misilsiz xidmətləri olan B.Əliyevin təsvir etdiyi portret əsərləri qeyd etdiyimiz kimi, rəssamın yaradıcılığında dominant olmuş və hər zaman canlı realizmi, obrazın düzgün bədii formada ifadəsi, forma ilə məzmun arasındakı vəhdəti ilə seçilmişdir. Həmçinin, rəssamın ərsəyə gətirdiyi portretlər dərin psixologizmi, nikbin əhval-ruhiyyəsi ilə yadda qalır.

Rəssamın avtoportretləri onun yaradıcılığında xüsusi yer tutur. Bu əsərlərində sənətkarın öz mənəvi aləminə səyahət edərək, özünə bədii aynadan baxmasına şahid oluruq. Burada B.Əliyev fərdi psixoloji xarakteristikasını ustalıqla təsvir edərək, obrazını özünü dərk edən şəxsiyyət səviyyəsində həll etmişdir. Rənglər arasındakı harmoniya, işıq-kölgənin incə keçidlərinin məharətlə bədii ifası əsərin təsir gücünü daha da artırır. Bu avtoportretlər rəssamın yaradıcılığında öz düşüncələrini və daxili aləmini tamaşaçıya təqdim etməsi baxımından önəmlidir.

Bu xüsusiyyətləri, rəssamın digər qəhrəmanlarının portretlərində görmək mümkündür. Məsələn "Azərbaycan SSRİ xalq artisti bəstəkar Cövdət Hacıyev" əsərində dərin düşüncələrə qərq olmuş görkəmli bəstəkarın kimliyini göstərməyə çalışır. Bu əsərdə sənətkarı yaradıcılıq prosesində, lirik abı-havada təqdim etməklə incə psixoloji çalarlarla göstərmişdir. Kompozisiyada ustalıqla yaradılmış yaradıcı mühit obrazın ifadəli açıqlanmasında mühüm əhəmiyyətə malikdir. Bunu rəssamın məqsədli olaraq kompozisiyaya daxil etdiyi fondakı royal, küləyin dalğalandırdığı pərdə və yaxud da sol tərəfdəki stul, ümumilikdə məkanın kolorit həlli bəstəkar C.Hacıyevin yaradıcı şəxsiyyət kimi işıqlanmasında məntiqli həllini tapır. Belə ki, bəstəkarın yaradıcılığının mayasını təşkil edən humanizm, insanın mənəvi gözəlliyi rəssam tərəfindən də məharətlə qabardılmışdır.

B.Əliyev qadın gözəlliyinin, zərafətinin, zəhmətsevərliyinin tərənnüm olunduğu portretlərində də incə psixoloji çalarlarını göstərən mahir bir sənətkardır. Fırça ustası hər bir qəhrəmanının ifadəli simasını təsvir etməklə yanaşı fərdi özünə xas imkan və vasitələrin diliylə əsərin bədii-estetik dəyərini də təsvir sisteminə uyğunlaşdırmışdır. Bunu rəssamın "Sağıcı qız" (1964), "Qadın portreti" (1965), "Şərbətlə qız" (1975), "Həkim qız" (1985), "Bolqar qızı" və digər bu qəbildən olan əsərlərində modelinin duruşunu seçərkən müxtəlif rakurslardan həvəslə istifadə edir.

Rəssam "Həkim qız" portretində qadının mənəvi xarakterini xarici simada əks etməyə cəhd edərək, sosial, əxlaqi və digər təsəvvürlərin modeldə təzahürünü ifadə etmişdir. Bu portret sübut edir ki, canlı müşahidə və həyatı dərindən duymaq rəssamın yaradıcılıq prinsiplərinin əsasında durur. Obrazın səmimiliyinə və orijinal həllinə görə seçilən əsər xüsusilə fərqlənir. Kompozisiyada profildən təqdim olunmuş ağ xalatlı həkim qadının oturmuş vəziyyətdə bir qolu ilə masaya söykənərək təsviri, digər əlinin simasına doğru yönəlməsi onun öz peşə qayğılarına daldığına işarədir. Nəzərinin uzaqlara dalması qadının mənəvi dünyasını, həyat tərzinin ona gətirdiyi çətinlikləri aydın şəkildə ifadə edir. Bu həlli portretin xarakteristikasının açılmasına xidmət edən rəng həllinə də aid etmək olar. Tünd fon və bu fonda itən masa üzərindəki dibçək məkan mühitini həll etməklə yanaşı, portretin işıqlı görünüşünü təmin edərək daha da ön plana çıxardır. Təmizlik, saflıq rəmzi olan ağ rəngin kom-

pozisiyada dominantlıq təşkil etməsi obrazın ön plana çıxaraq düzgün oxunuşuna xidmət vermişdir.

Əslində əmək adamlarını günün, havanın bütün çağlarında müşahidə edən, yüzlərlə etüd, köməkçi rəsmlər çəkən rəssamın özü elə əmək qəhrəmanıdır. Həyat həqiqətlərinə sədaqət, çağdaşlarının portretlərində ifadəlilik, obrazların daxili aləminin, mənəvi dünyasının məkan-zaman vəhdətində ifadəli çatdırılması ustalıqla rəssamın yaradıcılıq duyğuları ilə yoğrulduqdan sonra kətana köçürülür. B.Əliyev işlədiyi portretlərdə ayrılıqda hər obrazın fərdi xüsusiyyətlərini xarakterik cizgilərlə canlandıra bilmişdir. Rəng qammalarının poetik-emosional həlli, fikrin obrazlı təcəssümü ilə diqqəti cəlb edən portretlərində lirik-fəlsəfi dərinlik, təfəkkür genişliyi obrazların çöhrəsində ustalıqla mənalandırılıb.

Rəssamın diqqətli müşahidəçilik qabiliyyəti və qəhrəmanın xarakterik cizgilərini ifadə etmək istedadı portretlərinin daxili ruhunu işıqlandırmaqda xüsusi rol oynayır. “Sağıcı”, “Bolqar qızı” portretləri məhz bu xüsusiyyətlərin daşıyıcısıdır.

Hər iki portretdə obrazın təbii traktovkası, dəqiq rəsmi, düzgün modelləşdirmə, aydın kompozisiya quruluşu, zahiri bənzərliyi təmin etməklə yanaşı qəhrəmanın mənəvi dünyasını açıqlaması təsvirin həyatı gerçəkliyini təmin edir. Zəhmətkeş insan portretinin “Sağıcı” qadın obrazında daha aydın təzahürünü tapmışdır. Onun tamaşaçıya yönələn iti baxışları, rəng seçimi bilavasitə obrazın əhval-ruhiyyəsi ilə, təsvir məkanının məharətlə təşkili obrazın canlandırılmasına xidmət edir. Kompozisiyanın tünd bozumtul fon üzərində zəhmətkeş qadının qırmızı şala bürünmüş siması, onun qalın geyimi altında yorğun siluetinin cizgisini zəhmətkeş, lakin məğrur insan obrazının ümumiləşdirilmiş təcəssümü kimi dəyərləndirmək olar.

“Bolqar qızı” portretində isə bir qədər daha realistik obrazla qarşılaşırıq. Portret rəngkarlığın özünün forma və ifadə tərzinə görə rəngarəng və çoxcəhətlidir. Digər portretlərdən fərqli olaraq tamaşaçı qarşısında realistik tərzdə işlənmiş bolqar qadının siması canlandırılmışdır. Kompozisiyanın ön planında tamaşaçı ilə qarşı-qarşıya oturmuş vəziyyətdə təsvir edilmiş milli geyimli qadın mənsub olduğu xalqın milli dəyərlərinin daşıyıcısı kimi təqdim olunmuşdur. Onun başı çalmalı, ön hissədə əlləri çarpazlaşdırılmış, fonun soyuq rəng həlli ilə ziddiyyətdə verilmiş təsvir pozası bolqar qadınlarına xas əlvan rəngli milli geyimi tamamlayan qızılı boyunbağı ilə vurğulamaqla göstəriş elementləri daha da qabardılmışdır.

B.Əliyevin yaradıcılığında portret janrında yerinə yetirilmiş əsərlərdə qəhrəmanların bədii obrazlarının peşəkar səviyyədə icrası, onların hərtərəfli, dolğun təsviri ilə kompozisiyanın forma və məzmun vəhdətinin tapılması, rənglərin və həcmlərin ahəngdarlığı öz uğurlu həllini tapmışdır.

Yeri gəlmişkən qeyd etmək olar ki, obrazın psixoloji dərinliyinin, onun peşəsi,

sənəti ilə seçilən formanın uyarlığı, daxili dərinliyin rəng oynamalarında mənalı əksi, fikir genişliyinin sifət ifadələrində, baxışlarda mənalandırılması B.Əliyevin bütövlükdə portret yaradıcılığının başlıca məziyyətləridir. Ancaq hər dəfə bu keyfiyyətlər yeni istiqamətdə açılır, xarakterin fərdi mənəvi aləmi ilə bağlı rəng çaları da dəyişir. Bu baxımdan "Dülgərin portreti" öz tünd rəng tonlarının ahəngi və kəskin keçidləri ilə fərdi yanaşma tələb edən bir obraz kimi qarşımıza çıxır.

Rəngkarlığın müxtəlif janrlarına müraciət etmiş B.Əliyevin əsərlərinin bənzərsizliyi, ilk baxışdan təsvirlərin həm aydın, rahat çatdırılması, həm də düşündürücü xüsusiyyətlərə malik olması ilə özünü istedadlı və bacarıqlı rəssam kimi təsdiqləməyə nail olmuşdur.

**Ədəbiyyat siyahısı:**

1. Əfəndiyev T., Quliyeva G.; Kamil Xanlarov, 1915-1996: rəngkarlıq [İzomaterial]; Baba Əliyev, 1915-1990: rəngkarlıq; Nəcəfqulu İsmayılov, 1923-1990: rəngkarlıq. Bakı: Sərvət, [Şərq-Qərb], 2013. S. 104.
2. Tərlanov M., Əfəndiyev R. "Sovet Azərbaycanının təsviri incəsənəti". Bakı – 1958.
3. Габибов Н. Живопис Советского Азербайджана. Баку – 1982.
4. Гаибов Н. Выставка произведений заслуженного деятеля искусств Азербайджанской ССР. Баба Алиева. Каталог. Баку – 1966.
5. https://azertag.az/xeber/Gorkemli_ressam_Baba_Aliyevin_anadan_olmasinin_100_illiyine_hesr_olunmus_sergi_achilib-958275.

**Лейла Рамиз кызы Абушова**

## СТИЛИСТИЧЕСКИЕ ОСОБЕННОСТИ ПОРТРЕТНОГО ЖАНРА В ТВОРЧЕСТВЕ НАРОДНОГО ХУДОЖНИКА БАБА АЛИЕВА

**Резюме:** В статье говорится об уникальных стилистических особенностях жанра портрета в творчестве видного представителя нашего национального изобразительного искусства, Народного художника Баба Алиева. На основании проведенного исследования и полученных данных можно сказать, что удачное разрешение характерных черт как простых представителей трудолюбивого народа, так и личностей, получивших известное признание, является одним из основных моментов, привлекающих внимание в портретах Баба Алиев. Портреты, созданные художником, имеют высокую художественную ценность благодаря глубокому исследованию важных элементов определенного момента, характерного для жизни человека того периода.

**Ключевые слова:** портрет, жанр, изобразительное искусство, цветовое решение, трудолюбие, художественный образ, реализм.

**Leyla Ramiz gizi Abuşova**

**STYLISTIC FEATURES OF THE PORTRAIT GENRE IN THE CREATIVITY OF PEOPLE’S ARTIST BABA ALIYEV**

**Summary:** The article talks about the unique stylistic features of the portraitgenre in the work of Baba Aliyev, a prominent representative of our national fineart, People's Artist. Based on the conducted research and the obtained data, it canbe said that the successful resolution of the characteristic features of both simple representatives of the hardworking people and personalities who have gained certain recognition is one of the main points that attract attention in the portraits ofBaba Aliyev. The portraits created by the artist have a high artistic value due to thedeep research on the important elements of a certain moment typical of human lifefor that period.

**Key words:** portrait, genre, fine art, color solution, hardworking, artisticimage, realism.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 05. 11. 2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**